# Ağdamda bayram tonqalları şöləlbndi

**Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə keçirilən Novruz tədbirində RİH-in başçısı Vaqif Həsənov, YAP rayon təşkilatının sədri Mansur Quliyev, şəhid ailələri və qazilər, idarə, müəssisə və təşkilatların rəhbərləri, mədəniyyət işçiləri iştirak etmişlər.**



Heydər Əliyev Mərkəzinin qarşısında tədbir iştirakçılarına milli mətbəximizin nümunələri, qədim xalq oyunları, kitablardan, muzey eksponatlarından və rəsm əsərlərindən ibarət sərgi təqdim olunmuş, idmançılar tərəfindən müxtəlif nömrələr nümayiş etdirilmişdir. Tədbir keçirilən məkana Qarabağ atlarının gəlişi iştirakçılar tərəfindən maraqla qarşılanmışdır.

Heydər Əliyev Mərkəzinin qarşısında davam edən tədbirdə əvvəlcə Ümummilli Liderin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. Çıxış edən rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov rayon əhalisini və tədbir iştirakçılarını bayram münasibətilə təbrik etmiş, baharın gəlişini müjdələyən, təbiətin oyanışından soraq gətirən Novruzun xalqımızın mənəvi dünyasında özünəməxsus yeri olduğundan, Ümummilli Lider Heydər Əliyevin Novruza milli ideologiyamızın təməl sütunlarından biri kimi yanaşmasından, Novruz ənənələrini layiqincə yaşadan Prezident İlham Əliyevin dövlətimizə və xalqımıza qazandırdığı tarixi Zəfərdən bəhs etmişdir.

Şənlik Ağdam Musiqi Kollecinin "Qarabağ" instrumental ansamblının müşayiətilə Əməkdar artist Fehruz Səxavətin, Gülablı kənd Uşaq musiqi məktəbinin müəllimi Habil Məmmədov və tələbələrinin ifasında rəngarəng musiqi nömrələri, "Nənə qızlar" folklor ansamblının nümunəvi çıxışları, Kosa və Keçəlin şən zarafatları ilə davam etmişdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 20 mart (№ 61).- S.10.